# COVID-19 böhranından sonra inklüziv, sabit və davamlı xarakter daşıyan insana istiqamətlənmiş bərpa işləri aparmaq məqsədilə qlobal fəaliyyətə çağırış

**2021**

## BEYNƏLXALQ ƏMƏK TƏŞKİLATI

Beynəlxalq Əmək Təşkilatının Baş Konfransı COVID-19-a Cavab üzrə Konfrans Komitəsi tərəfindən verilən təklifi qəbud edərək, COVID-19 böhranından sonra inklüziv, sabit və davamlı xarakter daşıyan insana istiqamətlənmiş bərpa işləri üçün təcili tədbirlərin görülməsinə ehtiyac olduğunu nəzərə alaraq, 2021-ci il 17 iyun tarixli aşağıdakı qərarı qəbul edir.

COVID-19 böhranından sonra inklüziv, sabit və davamlı xarakter daşıyan insana istiqamətlənmiş bərpa işləri aparmaq məqsədilə qlobal fəaliyyətə çağırış

1. Koronavirus (COVID-19) pandemiyası bəşəriyyətə, cəmiyyətin bütün üzvlərinə böyük təsir göstərdi.

2. İnsan itkisi, insan sağlamlığına və cəmiyyətə dəyən zərərlə yanaşı, pandemiya iş dünyasına dağıdıcı təsir göstərdi. İşsizliyin artmasına, qeyri-məşğulluğa və fəaliyyətsizliyə səbəb oldu, əmək və biznes gəlirlərində itkiləri, xüsusilə mikro, kiçik və orta müəssisələrin bağlanması və iflasını, təchizat zəncirinin pozulmasını, işin və gəlirin təminatsızlığını, iş yerində sağlamlıq, təhlükəsizlik və digər hüquqların pozulması ilə bağlı yeni problemləri, yoxsulluğu, iqtisadi və sosial bərabərsizliyi daha da gücləndirdi.

3. Böhran qeyri-proporsional olaraq həssas təbəqələrə, xüsusilə qeyri-formal iqtisadiyyatda çalışan şəxslərə, aşağı ixtisaslı işlərdə çalışanlara, miqrantlara, etnik və irqi azlıqlara, yaşlı insanlara, əlilliyi olan və ya HİV/QİÇS-dən əziyyət çəkənlərə təsir göstərmişdir. Böhranın təsiri əvvəllər də mövcud olmuş işsizlik və yoxsulluğu daha da artırdı, bərabərsizlikləri genişləndirdi və ölkələr arasında qərəmsal boşluqları üzə çıxardı.

4. Qadınlar işin və qazancın qeyri-bərabər bölgüsündən əziyyət çəkirlər, çünki ən çox zərər çəkən sektorlarda çalışan işçilərin əksəriyyəti qadınlardır. Bir çoxları xidmət sistemini, iqtisadiyyatı və cəmiyyəti dəstəkləyərək çox vaxt qulluğa görə əksər işlərin ödənişsiz yerinə yetirildiyi öndə gedən sahələrdə çalışırlar. Bu da gender bərabərliyinin bərpası zərurətini vurğulayır.

5. Böhran gənclərin təhsilini, təlimini və məşğulluğunu ciddi şəkildə pozdu, onların iş tapmasını, təhsil və təlimdən işə uğurlu keçidini, təhsilini davam etdirməsini və ya biznesə başlamasını daha da çətinləşdirdi.

6. Hökumətlər, işəgötürənlər və işçi təşkilatları ilə beynəlxalq ictimaiyyətin razılaşdırılmış tədbirləri olmadan, bu differensial təsirlər aradan qalxmayacaq, sosial ədalətə, tam əməkhaqqına layiq işin əldə olunmasına dərin təsir göstərəcək və Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyinin məqsədlərinə çatmaq yolunda irəliləyişə xələl gətirəcək.

7. Bütün insanların keyfiyyətli, təhlükəsiz və effektiv COVID-19 peyvəndlərinə, müalicə və profilaktik tədbirlərə vaxtında, ədalətli, əlverişli və qlobal çıxışını təmin etmək üçün çoxtərəfli kontekstdə təcili və əlaqələndirilmiş fəaliyyətə ehtiyacı var. Səhiyyə texnologiyaları, diaqnostika, terapevtik və COVİD-19 məhsullarının cəmiyyətin bütün səviyyələrində ədalətli paylanması ölkələr daxilində və ölkələr arasında artan bərabərsizliyin qarşısını almaq, iqtisadiyyatları yenidən işə salmaq və daha yaxşı inkişaf etdirmək üçün vacibdir.

8. Beynəlxalq Əmək Təşkilatının (BƏT) unikal üçtərəfli strukturuna və normativ mandatına əsaslanan əhatəli, davamlı, dayanıqlı və ədalətli keçidi dəstəkləyən insana istiqamətlənmiş yanaşması ilə 2019-cu il Əməyin Gələcəyi üzrə BƏT-in Yüzillik Bəyannaməsi böhrandan xilas olmaq üçün zəmin yaradır. Bəyannamə ölkələrin daha yaxşı inkişaf etdirilməsinə dair müsbət baxış və yol xəritəsi təklif edir. Artan diqqət və investisiyalar hesabına onun həyata keçirilməsinin sürətləndirilməsi dövlət siyasətinin, müəssisə fəaliyyətinin və beynəlxalq əməkdaşlığın əsas prioritetinə çevrilməlidir.

I. İnklüziv, davamlı və davanıqlı olan insana istiqamətlənmiş bərpa prosesini inkişaf etdirmək üçün təcili tədbirlər

9. Biz, hökumətlər, işəgötürənlər və işçi təşkilatları BƏT-in Yüzillik Bəyannaməsinin məqsədyönlü və sürətləndirilmiş şəkildə həyata keçirilməsi yolu ilə COVID-19 böhranından sonra dünyanın insana istiqamətlənmiş bərpası üçün fərdi və kollektiv şəkildə işləməyə, bununla da hamı üçün layiqli iş ilə əhatəli və davamlı inkişafa doğru irəliləyişə məsuluq.

10. Bu iqtisadi, sosial, ekoloji, humanitar və səhiyyə sahələrində genişlənmiş beynəlxalq və regional əməkdaşlıq, qlobal həmrəylik və siyasət uyğunluğu vasitəsilə böhranın qlobal ölçülərini həll etməyə, bununla da bütün ölkələrdə böhranı aradan qaldırmağa və 2030-cu il Gündəliyinə, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Paris Sazişinə və İnkişaf üçün Maliyyələşdirmə üzrə Üçüncü Beynəlxalq Konfransın Əddis-Əbəbə Fəaliyyət Gündəliyinə nail olmaq istiqamətində irəliləyişi sürətləndirmək imkanı yaratmağa məsuluq.

11. Biz tam, məhsuldar və azad şəkildə seçilmiş məşğulluq və layiqli işi, pandemiyadan ən həssas və ən çox zərər çəkən insanların ehtiyaclarını və müəssisələrə, iş yerlərinə və gəlirlərə davamlı dəstəyi əsas məqsəd hesab edirik. Böhrandan daha yaxşı çıxış üçün konkret vəziyyətlərə uyğunlaşdırılmış və milli şərait və prioritetləri tam nəzərə alan strategiyalar aşağıdakılardır:

a) özəl və dövlət sektorunun, eləcə də sosial və həmrəy iqtisadiyyatın mühüm rolunu hesaba alaraq milli məşğulluq siyasəti sahəsində kompleks tədbirlərin qəbulu yolu ilə çoxlu sayda iş yerləri və layiqli əmək üçün imkanlar yaratmaqla geniş bərpanı, aşağıdakılar da ora daxil olmaqla, təmin etmək:

i) bərabərliyi və sabitliyi də gücləndirən dəstəkləyici makroiqtisadi, fiskal və sənaye siyasətləri;

ii) böhrandan ən çox zərər çəkən otelçilik biznesi, turizm, nəqliyyat, incəsənət, istirahət və əyləncə sahələri, eləcə də bəzi pərakəndə ticarət seqmentləri, layiqli əmək imkanlarının genişləndirilməsinin yüksək potensialı olan qulluq iqtisadiyyatı,

təhsil və infrastrukturların inkişafı sektorlarına müvafiq dövlət və özəl investisiyaların yatırılmasını;

b) inkişaf etməkdə olan kiçik ada dövlətləri də daxil olmaqla, turizm sektorundan asılı olan ölkələrdə, səyahətlər və turizm sektorunun ağır zəhmət tələb edən xarakterini və əsas rolunu nəzərə alaraq onun tezliklə bərpasına kömək etmək;

c) maliyyə və monetar siyasət məkanında böhranla bağlı azalmalar və ya davamlı xarici borc öhdəlikləri olan inkişaf edən ölkələrə dəstək vasitəsilə qlobal həmrəyliyi təşviq etmək;

d) dayanıqlı müəssisələrin məşğulluq mənbələri, innovasiyalar və layiqli əməyin təşviqçiləri kimi mühüm rolunu dərk edərək, biznesin davamlılığı və innovasiyaların, məhsuldarlığın artımı və dayanıqlı müəssisələrin, o cümlədən mikro, kiçik və orta sahibkarlığın inkişafı üçün əlverişli mühiti dəstəkləmək;

e) İş bölgüsü və daha qısa iş həftələri, əmək haqqı subsidiyaları, vergi və sosial təminat ödənişləri ilə bağlı müvəqqəti tədbirlər və biznesə dəstək vasitəsilə böhranla əlaqədar zəifləyən biznes fəaliyyətini inkişaf etdirmək, məşğulluğun və gəlirin davamlılığını qorumaq üçün işəgötürənlərə işçiləri saxlamaq stimulu vermək;

f) böhrandan qaynaqlanan iqtisadi və əmək bazarının pozulmasını bərpa etmək, işçilər və işəgötürənlər üçün keyfiyyətli məşğulluq xidmətləri təmin etmək məqsədilə milli məşğulluq xidmətləri sistemlərini və milli siyasətləri gücləndirmək, beynəlxalq əmək standartlarına uyğun olaraq məşğulluq xidmətlərinin rolunu artırmaq;

g) gənclərin keyfiyyətli təhsilini, təlim və layiqli əməyini dəstəkləmək, onların iş dünyasında dinamizm, istedad, yaradıcılıq və innovasiya mənbəyi və daha yaxşı iş gələcəyini formalaşdırmaq üçün potensialı maksimum dərəcədə artırmaq.

h) Keyfiyyətli təhsilə və təlimə universal çıxış, daha ədalətli və effektiv çıxış yolu da daxil olmaqla, o cümlədən internatura, karyera rəhbərliyi, bacarıqların artırılması və digər aktiv əmək bazarı siyasətləri və tərəfdaşlıqlar vasitəsilə bacarıqların inkişafı və təhsilə daimi dövlət və özəl investisiyaları gücləndirmək, aşağı ixtisaslı və uzunmüddətli işsizlər də daxil olmaqla, əmək bazarında məşğulluğa

keçid imkanlarını asanlaşdırmaq və bacarıq uyğunsuzluğunu, boşluqları və çatışmazlıqları azaltmaq;

i) aşağıdakılara töhfə verən daha davamlı təchizat zəncirlərini təşviq etmək:

i) layiqli iş;

ii) tədarük zənciri boyunca müəssisələrin, o cümlədən mikro, kiçik və orta müəssisələrin davamlılığı;

iii. ekoloji davamlılıq; və

iv. BMT-nin Biznes və İnsan Hüquqları üzrə Rəhbər Prinsiplərinin və Beynəlxalq Əmək Təşkilatının Çoxmillətli Müəssisələr və Sosial Siyasətlə bağlı Üçtərəfli Prinsiplər Bəyannaməsinin üç sütununa uyğun olaraq insan hüquqlarının qorunması və onlara hörmət edilməsi;

j) Kollektiv sövdələşmə və üçtərəfli əməkdaşlıq da daxil olmaqla sosial dialoq vasitəsilə layiqli işi inkişaf etdirmək üçün ədalətli rəqəmsal və ətraf mühitə keçid imkanlarından istifadə etmək;

k) qeyri-rəsmi məşğulluğun yayılmasının qarşısını almaq və formal iqtisadiyyata keçidi sürətləndirmək, xüsusilə müəssisələrin və layiqli iş yerlərinin yaradılması, qorunması və rəsmiləşdirilməsi üçün hərtərəfli, innovativ və inteqrasiya olunma yanaşmaları işləyib hazırlamaq və həyata keçirmək, kənd təsərrüfatına lazımi səviyyədə diqqət yetirmək;

b. Bütün işçilərin müdafiəsi

a. bütün işçiləri adekvat müdafiə ilə təmin etmək, beynəlxalq əmək standartlarına tabeliliyi gücləndirmək və onların ratifikasiyasını, tətbiqini və nəzarətini təşviq etmək, böhran nəticəsində ciddi boşluqların aşkar edildiyi sahələrə xüsusi diqqət yetirmək, iş yerində əsas prinsiplərə və hüquqlara hörmət; qanunla müəyyən edilmiş və ya razılaşdırılmış minimum əmək haqqı; iş vaxtının maksimum həddi və COVİD-19 pandemiyasının tələb etdiyi davamlı çağırışlara xüsusi diqqət yetirməklə iş yerində təhlükəsizlik və sağlamlıq;

b. uşaq və məcburi əməyin aradan qaldırılmasına xüsusi diqqət yetirməklə, pandemiya nəticəsində artan fundamental hüquq pozuntularının aradan qaldırılması üçün səyləri ikiqat artırmaq;

c. COVİD-19-a yoluxma və sağlamlığa güclü neqativ təsir riskinə məruz qalanların, o cümlədən tibb işçilərinin və ön sahələrdə olan, yəni transmilli şəraitdə işləyənlərin, həmçinin iş yükü çox olanların da peyvəndlərə, fərdi qoruyucu vasitələrə, təlimlərə, testlərə və sosial-psixoloji dəstəyə əlçatanlığını, adekvat mükafatlandırılmasını və müdafiəsini təmin etmək.

d. dövlət qurumları, özəl müəssisələr, işəgötürənlər, işçilər və onların nümayəndələri ilə əməkdaşlıq edərək əməyin mühafizəsi və təhlükəsizliyi tədbirlərini gücləndirmək.

i. uyğunlaşdırılmış praktiki rəhbərliyin təmin edilməsi;

ii. risklərin idarə edilməsinə dəstək;

iii. müvafiq nəzarət və fövqəladə hallara hazırlıq tədbirlərinin tətbiqi;

iv. yeni epidemiyaların və ya digər peşə risklərinin qarşısının alınması üçün tədbirlər;

e. layiqli əməyin təminatı üçün təhlükəsiz və sağlam əmək şəraitinin əsas rol oynadığını qəbul edərək səhiyyə sahəsində və digər COVİD-19-a aid norma və əsasnamələrdə tədbirlərin həyata keçirilməsinə riayət etmək.

f. Digər vasitələrlə yanaşı, tənzimləmə, sosial dialoq, kollektiv sövdələşmə, iş yerində əməkdaşlıq və rəqəmsal girişdə fərqlərin azaldılması səyləri vasitəsilə iş yerlərini saxlamaq və layiqli iş imkanlarını genişləndirmək üçün uzaqdan işləmə və digər yeni iş tənzimləmələrini tətbiq etmək, istifadə etmək və uyğunlaşdırmaq, beynəlxalq əmək standartlarına və məxfiliyə hörmət etmək və məlumatların qorunmasını və iş-həyat balansını təşviq etmək;

g. qeyri-rəsmiliyin miqyasını nəzərə alaraq formal iqtisadiyyata və layiqli əməyə keçidə nail olmaq üçün effektiv tədbirlərin görülməsinə təcili ehtiyac olduğunu dərk edərək, işçilərin hüquqi müdafiəsinin təmin etmək vasitəsi kimi əmək münasibətlərinin davamlı aktuallığını dəstəkləmək;

h. dövlət siyasəti və müəssisə təcrübəsi vasitəsilə gender bərabərliyi üçün transformativ gündəliyi həyata keçirmək:

i. əməkhaqqının şəffaflığı ilə dəstəklənən bərabər dəyərli iş üçün bərabər ödənişin təmin edilməsi;

ii. adekvat ödənişli qulluq məzuniyyətini təmin edən siyasətlərin genişləndirilməsi və iş və ailə məsuliyyətlərinin daha balanslı bölüşdürülməsini təşviq etmək;

iii. gender bacarıqları boşluqlarını aradan qaldıran məşğulluğun yaradılması və daimi öyrənmə siyasətinin təşviq edilməsi;

iv. təhsilə, səhiyyəyə, sosial işə, xidmət iqtisadiyyatına və digər sektorlara sərmayə qoymaq, kadr çatışmazlığını aradan qaldırmaq və iş şəraitini yaxşılaşdırmaq;

v. gender stereotipləri ilə mübarizə də daxil olmaqla, təhsilə, təlimə, məşğulluğa və karyeraya giriş və irəliləyiş üçün hüquqi və digər növ maneələrin aradan qaldırılması;

vi. iş dünyasında gender əsaslı zorakılıq və təcavüzün qarşısının alınması və qorunması.

a. irqi, cinsi, dini, siyasi fikri, milli və sosial mənşəyi daxil olmaqla və miqrantlar, yerli və qəbilə xalqları, Afrika mənşəli insanlar, etnik azlıqlar, yaşlılar, əlillər və HİV/QİÇS-dən əziyyət çəkən şəxslər, dövlət və özəl sektorlar arasında bərabərlik, müxtəliflik və inklüzivlik üçün iş dünyasında zorakılıq və təqibin və bütün əsaslarla ayrı-seçkiliyin aradan qaldırılmasına yönəlmiş transformativ gündəliyi icra etmək.

Ümumi sosial müdafiə

A. hərtərəfli, adekvat və dayanıqlı sosial müdafiəyə, o cümlədən milli səviyyədə müəyyən edilmiş sosial müdafiə mərtəbələrinə universal çıxış əldə etmək, minimum. həyat dövrü ərzində ehtiyacı olanların hamısının əsas gəlir təminatına və əsas səhiyyə xidmətinə çıxışını təmin etmək;

b. pandemiya səbəbindən işini və dolanışıq vasitələrini itirmiş işçilərə dəstək təmin etmək və keçidləri asanlaşdırmaq üçün işsizlikdən müdafiəyə çıxış imkanlarını genişləndirmək;

c. bütün işçilər üçün adekvat ödənişli xəstəlik məzuniyyəti, xəstəlik müavinətləri, sağlamlıq və qayğı xidmətlərinə, ailə məzuniyyətinə və digər ailəvi dostluq səyahətlərinə çıxışı təmin etmək, karantin və özünütəcrid hallarında əhatə dairəsini genişləndirmək və müavinətlərin daha sürətli çatdırılması mexanizmlərini inkişaf etdirmək;

d. səmərəli resursların səfərbər edilməsi, eləcə də heç kimin geridə qalmamasını təmin etmək üçün gücləndirilmiş qlobal həmrəylik və koordinasiya vasitəsilə sosial müdafiə sistemləri üçün ədalətli və davamlı maliyyələşdirməni təmin etmək,

e. xüsusilə səhiyyə böhranı zamanı və gələcək pandemiyaların qarşısının alınmasında ictimai səhiyyə və qayğı sistemlərinin mühüm rolunu dərk edərək, iqtisadiyyat və cəmiyyətlərin dəstəklənməsində dövlət sektorunun mühüm rolunu gücləndirmək;

c. Sosial dialoq

a. bir çox ölkə və sektorlarda həm ikitərəfli, həm də üçtərəfli sosial dialoqun COVID-19 pandemiyasına dərhal reaksiyada oynadığı rola əsaslanaraq, azadlığın təminedici hüquqlarına hörmət, təşviq və realizə əsasında birləşmə və kollektiv sövdələşmə hüququnun effektiv şəkildə tanınması;

b. Bu qlobal fəaliyyət çağırışında göstərilən nəticələrin çatdırılmasını dəstəkləmək üçün, xüsusilə sosial dialoqu təşviq etmək, o cümlədən layiqli iş yerlərinin saxlanması və yaradılması, biznesin davamlılığı və iş yerləri ilə bərpanı təmin etmək üçün həm dövlət, həm də özəl prioritet sektorlara və sahələrə investisiya;

c. regional, milli, sektoral və yerli bərpa strategiyaları, siyasətləri və proqramları hazırlamaq və həyata keçirmək üçün dövlət idarələrinin, işəgötürənlərin və işçi təşkilatlarının potensialını gücləndirmək.

II. BƏT-in rəhbərliyi və inklüziv, davamlı və dayanıqlı olan insana istiqamətlənmiş bərpaya dəstək.

12. Sosial ədalət və layiqli əmək mandatına malik olan BƏT COVİD-19 böhranından inklüziv sabit və davamlı xarakter daşıyan insana istiqamətlənmiş bərpa prosesinin irəliləyişinə dəstək göstərərək bütün üzv dövlətlər arasında, eləcə də beynəlxalq sistemdə aparıcı rol oynamalıdır. BƏT-in Yüzillik Bəyannaməsinin sürətləndirilmiş şəkildə həyata keçirilməsi vasitəsilə o, üzv dövlətlərin bərpa səylərinə dəstəyini gücləndirəcək və digər çoxtərəfli təşkilatların və beynəlxalq institutların dəstəyindən istifadə etməklə yanaşı, Birləşmiş Millətlər Təşkilatının 2030-cu il Gündəliyinin sürətləndirilməsi üçün səylərinə fəal töhfə verəcəkdir.

13. Hökumətlərə, işəgötürənlərə və işçi təşkilatlarına böhrandan daha yaxşı çıxmağa kömək etmək üçün BƏT bərpa strategiyalarının işlənib hazırlanmasına və həyata keçirilməsinə dəstək vermək məqsədilə bütün fəaliyyət vasitələrindən istifadə edəcək. Bu məqsədlə BƏT üzv dövlətlərin səylərinə dəstəyini gücləndirəcək:

a. inklüziv və dayanıqlı iqtisadi artım, məşğulluq və sosial inkişaf, siyasət və yanaşmaların inkişafı üçün dəstəyi artıracaq addımlar:

i.məşğulluq üçün intensiv investisiyalar yaratmaq;

ii. fəal əmək bazarı siyasətini gücləndirmək;

iii. sahibkarlar və müəssisələr üçün əlverişli mühiti təşviq etmək;

iv. diversifikasiya və innovasiya vasitəsilə məhsuldarlığı artırmaq;

v. Layiqli iş yerlərinin və dayanıqlı müəssisələrin yaradılması üçün platforma işini daxil etməklə texniki tərəqqinin və rəqəmsallaşmanın bütün potensialından istifadə etmək, insanlar və ölkələr arasında rəqəmsal uçurumu azaltmaq yolu ilə risk və problemləri aradan qaldıraraq tərəqqinin nailiyyətlərinin bölüşdürülməsində cəmiyyətin geniş iştirakını təmin etmək;

vi. əmək bazarının tələblərinə cavab verən bacarıqların inkişaf imkanlarını təşviq etmək və gənclərin təhsil və təlimdən işə səmərəli keçidini dəstəkləmək;

b. yaşlı işçilərin seçimlərini genişləndirmək, onların pensiyaya çıxana qədər keyfiyyətli, məhsuldar və sağlam şəraitdə işləmək imkanlarını optimallaşdırmaq üçün lazım ola biləcək şərait, məsləhət və yardımla təmin edən bələdçilik, təlim və məşğulluq xidmətlərini təşviq etmək;

c. bütün işçiləri qorumaq, o cümlədən siyasətlə bağlı məsləhətləri gücləndirmək, bacarıqların artırılması və texniki yardımı dəstəkləmək:

i. sağlam əmək münasibətləri və iş yerində fundamental prinsiplər və hüquqlar da daxil olmaqla, beynəlxalq əmək standartlarına əsaslanan hüquqi və institusional bazaların təşviqi və COVID-19 pandemiyasının təcrübəsi işığında əməyin mühafizəsinə və sağlamlığa xüsusi diqqət yetirilməsi;

ii. tədqiqat, inkişaf sahəsində əməkdaşlıq və siyasət müdaxilələri və rəhbərlik də daxil olmaqla, böhrandan xüsusilə təsirlənmiş qeyri-rəsmi iqtisadiyyata və təhlükəsiz iş formalarına müraciət etmək üçün strategiyaların prioritetləşdirilməsi və ümumiləşdirilməsi;

iii. iş yerlərinin qorunması və əmək bazarlarının böhranlara və pandemiyalara davamlılığının artırılması;

d. gəlir təhlükəsizliyinin və sağlamlığın qorunmasını təmin edən və insanlara, o cümlədən özünəxidmət fəaliyyəti ilə məşğul olanlara və qeyri-rəsmi iqtisadiyyatda işləyənlərə COVİD-19 böhranının yaratdığı çətinliklərin öhdəsindən gəlməyə imkan verən tədbirlər də daxil olmaqla, hərtərəfli, adekvat və davamlı sosial müdafiəyə universal çıxış əldə etmək;

e. əmək idarələrinin, əmək müfəttişliklərinin və digər aidiyyəti orqanların, xüsusilə müdafiə və əməyin mühafizəsi ilə bağlı qayda və qanunların icrasını təmin etmək üçün potensialını gücləndirmək;

f. Bərpa strateqiyalarının işlənib hazırlanması və həyata keçirilməsi, işəgötürənlərin və işçi təşkilatlarının milli bərpa strateqiyalarında iştirak etmək potensialının gücləndirilməsi və BƏT-in Beynəlxalq Təlim Mərkəzi və onun təlim

tərəfdaşları vasitəsilə bərpa prosesində öz üzvlərinə dəstək olmaq üçün sosial dialoqdan istifadə etməsi.

14. Çoxtərəfliliyin, xüsusilə də COVİD-19 böhranının iş dünyasına təsirlərinin aradan qaldırılmasında əhəmiyyətini vurğulayaraq, BƏT milli dəstək üçün güclü və ardıcıl qlobal reaksiyaya nail olmaq məqsədilə müvafiq çoxtərəfli və regional təşkilatlar və proseslərlə əməkdaşlığı gücləndirəcək, o cümlədən:

a. məşğulluğa və layiqli əməyə ən faydalı təsirini artırmaq üçün texniki və maliyyə dəstəyinin təmin edilməsini koordinasiya edəcək, ən həssas və təsirə məruz qalmış insanlara və ən çox zərər çəkmiş sektorlara xüsusi diqqət yetirəcək;

b. Milli siyasətdə və inkişaf sahəsində əməkdaşlıqda prioritet təşkil edəcək; iş yerində fundamental prinsiplərə və hüquqlara hörmət; beynəlxalq əmək standartlarının ratifikasiyası, qanunda və praktikada tətbiqi; bacarıqların inkişafı və ömür boyu öyrənmə və digər aktiv əmək bazarı siyasətləri; gender bərabərliyi; əməyin mühafizəsi və təhlükəsizliyi; və böhrandan qeyri-mütənasib şəkildə təsirlənən müəssisələrin, o cümlədən mikro, kiçik və orta müəssisələrin işinin davamlılığının maliyyələşdirilməsi;

c. beynəlxalq əmək standartları əsasında sosial müdafiənin minimum səviyyələri də daxil olmaqla, hərtərəfli, adekvat, dayanıqlı və ümumi sosial müdafiə təmin etmək məqsədi ilə sosial müdafiə sistemləri üçün qlobal dəstək ilə maliyyə strateqiyalarının işlənib hazırlanmasında və həyata keçirilməsində üzv dövlətlərə yardım edəcək;

d. güclü, mürəkkəb və mühüm əlaqələri nəzərə alaraq beynəlxalq ticarət və investisiyanın faydalarını genişləndirmək və layiqli əməyi, ekoloji dayanıqlılığı və təchizat zəncirlərində davamlı müəssisələri təşviq etmək üçün layiqli iş məqsədlərini və potensialın yaradılması yardımını sosial, ticarət, maliyyə, iqtisadi və ekoloji siyasətlər arasında beynəlxalq ticarət və investisiya siyasətləri ilə daha yaxından əlaqələndirəcək;

e. insana istiqamətlənmiş yanaşmanın potensial faydalı makroiqtisadi təsirlərinin başa düşülməsi də daxil olmaqla, BƏT-in Yüzillik Bəyannaməsində öz

əksini tapmış inklüziv, davamlı iqtisadi artıma, habelə tam, məhsuldar və sərbəst seçilmiş məşğulluğa və layiqli işə nail olmağa yönəlmiş fiskal, valyuta, ticarət və investisiya siyasətlərini təşviq etmək;

f. bərabərsizlikləri azaltmaq, qeyri-formal iqtisadiyyatı rəsmləşdirmək, təhlükəli iş formalarını aradan qaldırmaq, sahibkarlıq və dayanıqlı müəssisələr üçün əlverişli mühiti təşviq etmək;

g. inkişaf strategiyalarının maliyyələşdirilməsi, məşğulluğu intensiv sərmayələrə yönəltmə və bərpa prosesinin tərkib hissəsi kimi ətraf mühitin davamlılığına, o cümlədən dairəvi iqtisadiyyata ədalətli keçidə kömək məqsədilə layiqli iş yaratmaq üçün araşdırmaları inkişaf etdirmək və Dayanıqlı İnkişaf Məqsədlərinin potensialına dair məlumatları təkmilləşdirmək;

h. COVİD-19 ilə bağlı sertifikatlaşdırma istiqamətində işləmək üçün beynəlxalq əməkdaşlıq və həmrəylik mexanizmlərini təşviq etmək.

15. BƏT üzv dövlətlərin, beynəlxalq və regional təşkilatlar arasında birgə təşəbbüslər və təkmil institusional razılaşmalar da daxil olmaqla, əhatəli, davamlı və dayanıqlı insan mərkəzli bərpa strateqiyalarını dəstəkləmək üçün güclü və ardıcıl qlobal səylərin səfərbər edilməsinə yönəlmiş əsas siyasət forumunun çağrılması üçün digər çoxtərəfli institutlarla birgə işləyəcək.